Döyüş sənəti və fitnes studiyalarının rəqabətli bazarında biznes sahibi olaraq universallığın arxasında duran prinsipləri başa düşmək və tətbiq etmək biznesimin vəziyyəti və inkişafı baxımından dönüş nöqtəsi oldu. Patın bu kitabda təqdim etdiyi hamımıza fikir biznesimizə və həyatımıza yanaşma tərzimizdə paradiqma dəyişikliyi etmək üçün yol göstərir. Bu yol ən yaxşı olmağa çalışaraq özünü öldürmək deyil. Bu, pazlın parçalarını bir araya gətirmək, daha yaxşı olmaq üçün lazım olanı öyrənmək və bazara qiymətli, eləcə də unikal bir şey təklif etməkdir. Bu kitab bunu necə etmək barədə ən yaxşı bələdçidir".

***– Som Sikdar, "Dragon Gym" döyüş sənətləri və fitnes şirkətinin baş direktoru***

"Kitabı ilk dəfə oxuyanda həm həyəcanlandım, həm də kədərləndim. Həyəcanlandım, çünki bacarıqlar yığmağın özümü daha yaxşı təqdim etmək baxımından nə qədər təsirli ola biləcəyinin fərqinə vardım. Bütün həyatımı ixtisaslaşmağın uğurun açarı olduğuna inanaraq keçirdiyim üçün isə təəssüf etdim.

Bu kitab bir sahədə ustalaşmağa çalışaraq özünüzü öldürmək əvəzinə bir çox bacarığa yiyələnərək məqsədlərinizə necə çata biləcəyinizə dair böyük bir həyat dərsidir".

***– Con Rid, "YourOnlineVideoCoach.com"un prezidenti***

*Bu kitab babam Con Counz və nənəm*
*Jaklin Conesaya, yəni "D-Dop" və "D-Dom"a*
*ithaf olunub.*

## İÇİNDƏKİLƏR:

**Giriş**
Niyə bacarıq toplama > ixtisaslaşma?............................10
**Fəsil 1:** Mükəmməl yaxşının düşməni olduqda.............19
**Fəsil 2:** Koqnitiv azadlığınızı qazanmaq (və lazım gəldikdə əksini seçmək hüququ).....................................30
**Fəsil 3:** Universal olmaq: beş əsas prinsip.....................41
**Fəsil 4:** Necə daha yaxşı praktika etmək və sürətli təkmilləşmək olar?...........................................................65
**Fəsil 5**: Haradan başlamalı? – Metabacarıqlar................93
**Fəsil 6:** Marağınızı cəlb edə (amma ehtiyac olmaya) biləcək bacarıqlar.........................................................160
**Fəsil 7:** Ehtiyacınız ola (lakin marağınız olmaya) biləcək bacarıqlar...............................................................177
**Nəticə:** Unutmayın ki, ən yaxşısı uzaqgörənliklə yaşanan həyatdır...........................................................192
**Təşəkkürlər**.........................................................205
**Əlavələr:** Universal şəxslərin tərcümeyi-halları .........207
**Müəllif haqqında** .........................................................228

# GİRİŞ
# NİYƏ BACARIQ TOPLAMA > İXTİSASLAŞMA?

İrəliləmək üçün dünyanın ən yaxşısı olmaq lazım deyil. Diqqət mərkəzində olmaq, bir anda varlanmaq və ya həyatın mənasını tapmaq üçün bir nömrə olmağa ehtiyac yoxdur. Siz yalnız bir neçə məsələdə yaxşı və ya mükəmməl – ən azından kifayət qədər səriştəli – olmalısınız və sonra özünüzdə ən yüksək yaradıcı keyfiyyəti inkişaf etdirmək üçün bunları birləşdirməlisiniz. İxtisaslaşma – çoxumuza erkən yaşlarımızdan aşılanmış məqsəd – insanları kifayət qədər uzun müddətdir ki, tutub saxlayan tələdir. Bu kitab gedişata son qoymaq üzrədir.

Mən sizə biznesə başlamağın yeni üsullarını bir-bir öyrətmək niyyətində deyiləm. Biznesə başlamaq üçün istifadə edə biləcəyiniz (istəsəniz) yeni bacarıqlara yiyələnməyin yolunu addım-addım öyrətmək və beləliklə, sizə uğuru tapmaq yox, yaratmaq ba-

xımından çox daha yaxşı bir şans vermək istəyirəm. İnsanlar müəssisənizi əlinizdən ala bilər, iqtisadi böhran da. Ancaq heç kim sizi həyatdan məhrum etmədikcə bacarıqlarınızdan məhrum edə bilməz. Bu kitabın işə yaraması üçün xüsusi DNT ilə doğulmağınız tələb olunmur. Təkcə öyrənməyə hazır olmaq lazımdır. İnanılmaz dərəcədə ilhamverici hekayə axtarırsınızsa, deyəcəklərimin çoxunda bunu tapa bilməyəcəksiniz. Ancaq Yer üzünə heç bir xüsusi anadangəlmə qabiliyyəti olmadan göz açmış bir insan, bir ömür boyu əsəb xəstəlikləri ilə mübarizə aparan və buna baxmayaraq, bacarıq əldə etməyə davam edən biri sizə maraqlıdırsa, uğurlu biznes xəttinin qurulması istiqamətində həyatın adi trayektoriyasından kəskin şəkildə üz döndərən – yazıçı, musiqiçi, qara kəmər sahibi, məşhur B səviyyəli fitnesçi – və bir-biri ilə əlaqəli görünməsə də, dinamik şəkildə birləşən, olduqca gözəl bir çox başqa bacarıqlara sahib olan şəxs diqqətinizi çəkirsə, onda, yəqin ki, bunu oxumaq istəyəcəksiniz.

Bu kitab universallıq haqqındadır. Məqsədimiz bir işdə ən yaxşı olmasaq da, bir çox işdə əksəriyyətdən daha yaxşı olmaqdır. Niyə bunu istəyirik? İlk deyəcəyim odur ki, universal olmaqla ən azı ətrafınızdakılar üçün daha az darıxdırıcı olacaqsınız. Bir çox mövzuda mükəmməl olmaq, açığını desəm, çox az adamda olan bir keyfiyyətdir. İnsanların çoxu bir və ya iki mövzuda bir qədər yaxşıdır, qalan məsələlərdə isə tamamilə səriştəsizdirlər; çox vaxt ev bitkisini canlı saxlamaq kimi sadə işləri belə görə

bilmirlər. Bunun nə qədər çətin olduğunu özüm də bilmirəm, çünki indiyə qədər sahib olduğum yeganə bitki universitetdəki otaq yoldaşım tərəfindən oğurlanmışdı. O bunun bir növ marixuana olduğunu düşünmüşdü. İşin gülməli tərəfi bu idi ki, bitki onun düşündüyü kimi çıxmamışdı. O, anamın mənə aldığı tamamilə adi bir bitki idi. Bitkini oğurlayanın otaq yoldaşım olduğunu bilirdim, çünki bir gün sehrli şəkildə otağın onun olan tərəfində üzə çıxdı. “Sən bir işə bax”, – deyə düşündüm. Görəsən, burada nə baş verir? Ona görə dedim: “Ay dostum, yoxsa sən mənim bitkimi oğurlamısan?” O mənə sakitləşməyi məsləhət gördü, mən də onun dediyini etdim: “Hər nə isə, o bitki sənin düşündüyün kimi bir bitki deyil”. Və sonra bunun öhdəsindən gəldim. Çünki həyat belədir: hər şeyin öhdəsindən gəlirsən. Bir nömrəli dərs.

İki nömrəli dərs isə budur: iş qurmaqla maraqlanır və ya hansısa işə başlamağı düşünürsünüzsə, bilin ki, müxtəlif bacarıqlar əldə etmək, bir işdə ən yaxşı olmağa çalışmaqdan min dəfə güclüdür. Biz bunu bacarıq toplamaq adlandırırıq: bacarıqların unikal və faydalı şəkildə birləşdirilməsi sizə bir işdə ixtisaslaşan birindən daha çox azadlıq və çoxyönlülük qazandırır. Bu mənim haqqında çox şey öyrətməyi planlaşdırdığım bir mövzudur, ona görə də xahiş edirəm, rahat olun.

Son olaraq, filosofların bizə dedikləri kimi (Aristotel və Foma Akvinat kimi filosofları nəzərdə tutu-

ram, hedonistlərdən danışmıram), xoşbəxtlik, həqiqətən, yaxşı fəaliyyətlə məşğul olmağı və bundan həzz almağı ehtiva etdiyinə görə, biz görünür ki, əldə etdiklərimizlə deyil, göstərdiyimiz səylərlə qane oluruq. Başqa sözlə, bacarıqlar yaxşıdır, çünki onlar bizə məşğul olmaq üçün yaxşı səbəb yaradır və hamımızın buna ehtiyacı var. Uzun sözün qısası, bu kitab bir çox işdə möhtəşəm olmaq, hər işdə (demək olar ki) kifayət qədər bacarıqlı olmaq, rəqabət üstünlüyü yaratmaq üçün bu qabiliyyətləri birləşdirməyi öyrənmək və eyni zamanda həyatdan tam doyum əldə etmək haqqındadır. Çox da çətin bir iş deyil, hə? Bəs bütün bunların sirri nədir? Bacarıq toplamaq (Əla!). Düşmən? İxtisaslaşmaq (Eh!).

Mən sizə, əsasən, bəzi işlərdə daha yaxşı olmağın yollarını – bacarıq əldə etmək qabiliyyətini öyrətmək istəyirəm, beləliklə, heç vaxt malik olmadığınız, hətta ehtiyacınız olduğunu düşünmədiyiniz bütün bacarıqlarla reputasiya əldə edə və inkişaf edən biznes (istəsəniz) qura bilərsiniz. Gördüyüm qədəri ilə problem ondadır ki, bu gün özünüinkişaf kitablarının əksəriyyəti artıqçəkili olanların özünəinamını artırmaq və ya sosial mediada özünü reklam etmək kimi mövzulardan bəhs etdiyi üçün heç kim sizə bu inklüziv bacarıqları öyrətmək barədə düşünmür. Artıqçəkililərin (əvvəllər mən də belə idim – bu barədə bir azdan bəhs edəcəyəm) özünəinam qazanmasının və sosial mediada özlərini reklam etmələrini öyrənməyin tərəfdarı olsam da, bu cür bacarıqların ən

fundamental səviyyədə xoşbəxt və uğurlu olmaqla çox az əlaqəsi var.

Xoşbəxtlik bir bacarıqdır, biznes qurmaq başqa bir bacarıqdır. Mən sizə lazım olan bacarıqları necə əldə edəcəyinizi, sonra rəqabət qabiliyyətinizi və yaradıcı ruhunuzu tapmaq üçün bu bacarıqları necə birləşdirəcəyinizi öyrədəcəyəm. Mən inanılmaz dərəcədə yaradıcı insanam? Ən azı bir qədər yaradıcı olduğumu düşünmək istərdim. Nələrsə çəkirəm, musiqi ilə məşğul oluram və yazıram. Hətta bir dəfə videooyun turnirində iştirak etmişəm. O qədər də pis nəticə əldə etməmişdim. Birinci raundda qalib gəlmişdim. Yaradıcı olmağımın səbəbi (əgər həqiqətən də, beləyəmsə) universal olmağımdır. Mən bir çox işi yaxşı bacaran (bunu belə dedikdə həmişə bir qədər özümü ucaldırammış kimi səslənir) və pul qazanmaq üçün bu bacarıqları bir araya gətirmək ideyalarını reallaşdırmış, daha da əhəmiyyətlisi, bunu edərkən kifayət qədər əyləncəli vaxt keçirməyin yolunu tapmış biriyəm. Mən yalnız "kifayət qədər əyləncəli" deyirəm, çünki bir-iki dəfə işlər gözlədiyim qədər yaxşı getməmişdi. Öhdəsindən gələcəyəm (Bilirsiniz də, mən olmaq çətindir. Bunu dediyiniz üçün təşəkkür edirəm. Yox, həqiqətən. Bu, zənn etdiyinizdən daha çox məna ifadə edir. Budur, əyləşək və göz təmasını qoruyaq).

Beləliklə, bu kitab belə işə yarayacaq. Birincisi (mən hər şeyi nömrələməyi xoşlayıram. Bu məni nizam-intizamda saxlayır), universallıqdan, onun arxasında

duran prinsiplərdən və nə üçün bu fəlsəfənin sizə (yaxud hər kəsə) sevdiyiniz işlərlə məşğul olaraq pul qazanmaqda, uğur və xoşbəxtlik tapmaqda kömək edə biləcəyini düşündüyümdən danışacağam. Bu, qulağa xoş gəlmir? Məncə, gözəl səslənir. İkincisi, mən bacarıqların toplanması və niyə bunun sahibkar (və insan) olmaq üçün ixtisaslaşmaqdan və ya bir işdə "ən yaxşı" olmağa çalışmaqdan daha effektiv olmasından bəhs edəcəyəm. Üçüncüsü, yeni bacarıqların öyrənilməsini qırx milyon dəfə asanlaşdıran bir sıra prinsiplər vasitəsilə sizi maraqlandıran hər hansı bir işdə necə daha yaxşı ola biləcəyiniz barədə məlumat verəcəyəm. Həmçinin (demək olar ki) hər bir insanın həm maliyyə baxımından, həm də metaforik olaraq irəliləməyə başlaması üçün lazım olduğunu düşündüyüm bacarıqları da sizinlə bölüşəcəyəm. Və narahat olmayın, bu bacarıqların heç birinin inkişaf etdirilməsi o qədər də çox vaxt tələb etmir. Sadəcə insanların çoxu onları inkişaf etdirməyi heç düşünmür. Nəhayət, bacarıqlar yığınını, həqiqətən, necə inşa edəcəyiniz və gözəl həyata – bəli, gözəl həyata – nail olmaq üçün bütün yeni istedadlarınızı işə salmağın yolları barədə danışacağıq. Çünki bu barədə danışmasaydıq, bu, fərdi inkişaf kitabı olmazdı.

Yolboyu biz bu universallıq fəlsəfəsindən istifadə edən bəzi tanınmış şəxsləri müzakirə edəcəyik – siz buna uğur, məna və məmnuniyyət tapmaq üçün bir çox işdə yaxşı və ya mükəmməl olan nümunələrin analizi deyə bilərsiniz (Kitabın "Əlavə" hissəsində

bunlardan daha çoxunu, universallığı fəaliyyətdə görmək üçün əlavə imkanlar tapa bilərsiniz). Üçüncü sinifdə Corc Vaşinqton Karver kimi şəxslər barədə kitab icmalı hazırlamışam, sadəcə mənim barəmdə bir az məlumat sahibi ola biləsiniz deyə qeyd edirəm. Məsələn, Corc Vaşinqton Karver sadəcə fıstıq və şirin kartofla bağlı bir yenilikçi deyildi, daha çoxu idi. O həm də iman və elm arasındakı əlaqəni düzgün başa düşmək tərəfdarı olması ilə məşhur idi. Bundan əlavə, o, ekologiyanın güclü müdafiəçisi idi, eyni zamanda biznes liderlərinə məsləhətlərin verilməsi və sosial yardım proqramlarının təşkili ilə məşğul olurdu. Adam çox şeyə nail oldu, çünki bir çox şeyə qadir idi və böyük ürəyi vardı. O həm də bacarıqlı bir rəssam idi. Yolboyu bir neçə müasir şəxsiyyəti də qeyd edəcəyəm – bunu deyərkən ölü olmayanları nəzərdə tuturam.

Dediyim kimi, mənim məqsədim sizə biznesə başlamağın yeni üsullarını addım-addım öyrətmək deyil, çünki məncə, bu, darıxdırıcı olardı. Məqsədim sizə prinsipcə (az qala) hər işdə daha yaxşı olmağı öyrətmək və həyatda istədiyiniz hər şeyi əldə etmək üçün hansı bacarıqlara ehtiyacınızın olduğunu anlamağınıza kömək etməkdir.

Başa düşürəm ki, bu kitabda yazılanlar sizə qəribə gələ bilər və yəqin ki, mənim də bir qədər özünəməxsus şəxsiyyət olduğumu düşünə bilərsiniz, amma bir məqsədim olduğu və ixtisasın həyatda gediləcək yol olmadığı mövzusunda mənə etibar edin. Bir çox